# Sabah yeni dərs ili başlanır

## Rayon təhsil işçilərinin sentyabr konfransı

Sentyabrın 9-da Qəbələ Rayon Təhsil işçilərinin konfransı keçirilmişdir. Konfransdan əvvəl qonaqlar, rayon təhsil şöbəsinin rəhbər işçiləri, fəal müəllimlər ulu öndər Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə tər güllər düzmüş, dahi liderin əbədi və unudulmaz xatirəsini yad etmişlər.





Konfransın plenar iclası Heydər Əliyev Konqres Mərkəzində başlamışdır.

Konfransın işində respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdulayev, təhsil nazirliyinin nümayəndəsi Fərzəli Qədirov iştirak etmişlər.

Qəbələ müəllimlərinin ali məclisini giriş sözü ilə təhsil şöbəsinin müdiri Oqtay Hacıyev açmışdır. Salonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Konfransda rayon təhsil şöbəsinin müdiri Oqtay Hacıyev 2014-2015-ci tədris ilinin yekunları və yeni dərs ilində qarşıda duran vəzifələr barədə məruzə etmişdir.

Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Təhsil Nazirliyinin nümayəndəsi Fərzəli Qədirov, rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov, Çuxur Qəbələ kənd tam orta məktəbinin direktoru Müşfiq Əzizov, Qəbələ şəhər 4 saylı tam orta məktəbin müəllimi Vəfa İbrahimova, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin müəllimi Zöhrə Mİrzəyeva, Nohurqışlaq kənd tam orta məktəbin müəllimi Şəfəq Abdullayeva, Nic qəsəbə 1 saylı tam orta məktəbin direktor müavini Emil Zəki və ali məktəblərə qəbul zamanı yüksək nəticə göstərmiş Qəbələ şəhər 1 saylı tam orta məktəbin məzunu Təranə Şirinbəyli müzakirə olunan məsələlərlə əlaqədar çıxış etmişlər.

Konfransda mövzu ilə bağlı qərar qəbul olunmuşdur. 2014-2015-ci dərs ilini müvəffəqiyyətlə başa vuran bir qrup məzunlara və qabaqcıl müəllimlərə Qəbələ Rayon İcra Hakimiyyəti və təhsil şöbəsi tərəfindən qiymətli hədiyyələr verilmiş, fəxri fərmanlar təqdim edilmişdir.

Konfrans iştirakçıları Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə müraciət qəbul etmişlər.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar İ. VƏLİZADƏNİNDİR**

## *Azərbaycan Respublikasının Prezidenti möhtərəm, cənab İlham Əliyevə Qəbələ rayon müəllimlərinin*

## MÜRACİƏTİ

**Möhtərəm Prezident!**

Müasir Azərbaycan dövlətinin banisi ölkəmizin dünyanın ən inkişaf etmiş, sivil dövlətləri səviyyəsinə yüksəldilməsi üçün zəngin idarəçilik təcrübəsinə dönməz iradəyə malik olan ulu öndər Heydər Əliyevin yorulmaz, məqsədyönlü fəaliyyəti xalqımıza firavan, xoşbəxt həyat nəsib etmişdir.

**Cənab Prezident!**

Ümummilli liderimiz Heydər Əliyevin ideyaları, təməlini qoyduğu nəhəng quruculuq işləri məhz Sizin tərəfinizdən böyük qətiyyətlə və uğurla həyata keçirilməkdədir. Sizin ölkəmizə rəhbərlik etdiyiniz illər çağdaş təhsilimizin tarixində inkişaf, bütün sahələrdə islahatların daha da dərinləşməsi, ölkənin o cümlədən də təhsilin elmi əsaslara söykənən dövlət proqramları vasitəsi ilə idarə olunması dövrü kimi xarakterizə olunur.

**Möhtərəm cənab Prezident!**

Məhz sizin məqsədyönlü fəaliyyətinizin nəticəsidir ki, ölkəmiz dünyanın siyasi, iqtisadi və maliyyə böhranları ilə üzləşən böyük dövlətlərindən fərqli olaraq yüksələn xətlə inkişaf edir .Bu gün hər bir azərbaycanlı qürur hissi keçirir və öyünür ki, zəngin tarixi və mədəniyyəti, əsrarəngiz təbiəti, abad və gözəl şəhərləri qonaqpərvər insanları ilə fərqlənən bu diyar dünya xalqlarının diqqətini özünə cəlb etməkdədir. Elə bu səbəbdəndir ki, ölkəmizə əcnəbi qonaqların gəlişi ildən ilə artır, beynəlxalq tədbirlərin, yarış və festivalların keçirilməsinə ölkəmiz ev sahibliyi edir. Bu yaxınlarda Birinci Avropa idman oyunlarının məhz bizim ölkəmizdə keçirilməsi, onun möhtəşəm açılışı, yarışların gedişi və bağlanış mərasimləri bütün Azərbaycan xalqını, o cümlədən biz ziyalıları da heyran etmişdir.

**Möhtərəm cənab Prezident!**

Sizin 24 oktyabr 2013-cü il tarixli sərəncamızla təsdiq olunmuş "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli strategiya" biz təhsil işçilərinin ən mühüm proqram sənədi olub, gələcək fəaliyyətimizə istiqamət verən bir mayaqdır.

Sizin tərəfinizdən qəbul edilmiş, ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafına xidmət edən sərəncamların uğurla həyata keçirilməsinin nəticəsidir ki, respublikamızın bütün bölgələrində o cümlədən rayonumuzda da müasir tələblərə cavab verən yeni məktəb binaları tikilmiş və ya əsaslı təmir edilmişdir. Məktəblərimiz müəllim və şagirdlər üçün ən müasir avadanlıqlar, tədris vəsaitləri, kompüter və digər informasiya kommnukasiya texnologiyaları ilə təchiz olunmuşdur.

Bizə göstərilən bu yüksək qayğı, yaradılan şərait bizi daha yaxşı işləməyə, gələcəyin davamçıları olan gənclərin təlim-tərbiyəsi ilə daha ciddi məşğul olmağa ruhlandırır.

**Möhtərəm cənab Prezident!**

Bizə göstərdiyiniz qayğı və diqqətə cavab olaraq bildiririk ki, Qəbələnin təhsil işçiləri ötən dərs ilini uğurla başa vurmuş, məzunlarımızın ali və orta ixtisas məktəblərinə qəbulu üzrə nailiyyətlərimiz ənənəvi olaraq respublika göstəricisindən yüksək olmuşdur.

Əldə edilmiş nailiyyətlər, qazanılmış uğurlar biz təhsil işçilərini heç də arxayınlaşdırmır, əksinə bizim məsuliyyətimizi daha da artırır. yüksək təhsil göstəricilərinə nail olmağa sövq edir.

Sizin prezidentlik fəaliyyətinizi bütün Azərbaycan xalqı, eləcə də Qəbələlilər ürəkdən dəstəkləyir, sizə uzun ömür, can sağlığı, vətənimizin tərəqqisi naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

**(Müraciət Qəbələ rayon təhsil işçilərinin 9 sentyabr konfransında qəbul olunmuşdur).**

# *Bilik gününüz mübarək!*